AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№67 (1337), 7 - 13 noyabr 2017-ci il

Qəzet 2001-ci ildən çıxır.



## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında yeni yaradılmış ixtisasların təqdimatı oldu

Dünən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (AzDBTİA) yeni yaradılmış ixtisasların və bu ali təhsil müəssisəsində aparılan yenidənqurma işlərinin təqdimatı keçirildi. Tədbirdə Baş nazirin müavini Elçin Əfəndiyev, gənclər və idman naziri Azad Rəhimov və digər rəsmi şəxslər iştirak etdilər.

Akademiyanın rektoru Fuad Hacıyev son dövrdə bu ali təhsil müəssisəsində aparılan yenidənqurma işləri və tədrisdə innovasiyalar barədə məlumat verdi.

Rektor bildirdi ki, cari ilin sentyabr ayından başlayaraq, Akademiyada "İdman jurnalistikası", "İdman menecmenti", "İdman tibbi və reabilitasiya" üzrə modul tipli ingilis dilində magistr ixtisaslarının tədrisinə start verilib. "İdman menecmenti" magistr proqramı Böyük Britaniyanın Şeffild Hallam Universiteti ilə birlikdə tərtib olunub.

"İdman jurnalistikası" proqramına media sahəsində tanınmış beynəlxalq ekspert, "Dan Mason Media" şirkətinin təsisçisi Den Meyson rəhbərlik edir. Bu ixtisas üzrə magistr proqramında təhsil alan tələbələr media və ictimai əlaqələr, audio və video jurnalistika, idman jurnalistikasının özəllikləri və s. mövzularla yaxından tanış olacaqlar.

Təqdimat zamanı qonaqlara AzDBTİA-da yaradılan müasir şərait və bütün beynəlxalq standartlara cavab verən yeni infrastruktur haqqında da ətraflı məlumat verildi.

## Xəbərlər

### Kiprdə 1 qızıl və 1 bürünc medal sevinci

Kiprin Larnaka şəhərində keçirilən taekvondo üzrə gənclər arasında Avropa birinciliyinə yekun vurulub. 21-ci dəfə təşkil olunan qitə birinciliyində 700-dən çox idmançı qüvvəsini sınayıb. Yığmamız yarışda 18 (10 oğlan və 8 qız) taekvondoçu ilə təmsil olunub. Gənclərdən ibarət millimiz qitə birinciliyini 1 qızıl və 1 bürünc medalla başa vurub. Yarışın ilk günündə 45 kq çəki dərəcəsində mübarizə aparan Bəhruz Quluzadə rəqiblərinə şans verməyərək, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, finaladək Belçika, Böyük Britaniya, Rusiya və Gürcüstan təmsilçilərini yarışdan kənarlaşdırıb. Həlledici mərhələdə rusiyalı Dmitri Şişkoya da qalib gələn taekvondoçumuz yarışın qızıl medalına sahib çıxıb.

Bu qələbə ilə Bəhruz Quluzadə Avropa birinciliyində ikinci dəfə çempion adını qazanıb. O, 2015-ci ildə yeniyetmələr arasında Fransada təşkil olunan yarışda da fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdı.

Komandamızın digər üzvü Cavad Ağayev (63 kq) isə Avropa birinciliyinin bürünc medalını qazanıb.

### Avropa çempionluğunun bir addımlığında

Yunanıstanın Krit adasında şahmat üzrə keçirilən komandalararası Avropa çempionatı davam edir. Millimiz qitə çempionatında qadınlar və kişilərdən ibarət komanda ilə təmsil olunur.

Mötəbər yarışın səkkizinci turunda kişilərdən ibarət yığmamız Rusiya, xanım şahmatçılarımız isə Fransa millisi ilə qarşılaşıblar.

Şəhiyar Məmmədyarov, Teymur Rəcəbov, Arkadi Naydiç və Rauf Məmmədovdan ibarət komandamız rəqibinə şans verməyib - 3:1. Rusiya üzərindəki qələbə yığmamızı turnir cədvəlində birinci pilləyə yüksəldib. Rusiya yığması ikinci, Ukrayna millisi isə üçüncü pillədədir.

Yarışın sonuna bir tur qalmış millimiz Avropa çempionluğunun bir addımlığında qərarlaşıb.

Qadınlardan ibarət yığmamız da eyni hesablı qələbəyə sevinib - 3:1. aktivində 9 xal olan komandamız 10-cu pillədə yer alıb.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"

Gimnastika ölkəmizdə seçilən idman növlərindən biridir

Səh. 3

## Cüdo Federasiyasının təlim-məşq zalının açılışı olub

Noyabrın 3-də Bakı Olimpiya Stadionunda Azərbaycan Cüdo Federasiyasının (ACF) təlim-məşq zalının açılış mərasimi keçirilib.

Açılış mərasimində ACF-in prezidenti Rövnəq Abdullayev, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Federasiyanın vitse-prezidentləri Mikayıl İsmayılov, Sadıq Sadıqov, Elnur Məmmədli, İcraiyyə Komitəsinin üzvləri, tanınmış idman mütəxəssisləri iştirak ediblər.

Təlim-məşq zalının rəmzi açılışını bildirən lentin kəsilməsindən sonra iştirakçılar yaradılan şəraitlə tanış olublar.

(ardı 2-ci səhifədə)



### Stolüstü tennisçimiz gənclərin Olimpiya Oyunlarına lisenziya qazandı

Xorvatiyanın Split şəhərində stolüstü tennis üzrə keçirilən gənclərin Olimpiya Oyunlarının Avropa təsnifat turnirinə yekun vurulub. Yarışda 32 oğlan və 27 qız tennisçi mübarizə aparıb. Ölkəmiz turnirdə 2 tennisçi ilə təmsil olunub. Sevindirici haldır ki, qadın stolüstü tennisçimiz gənclərin Olimpiya Oyunlarına lisenziya qazanıb. Bu Azərbaycan stolüstü tennisinin tarixində ilk lisenziyadır.

Məlumat üçün qeyd edək ki, gənclərin Olimpiya Oyunları 2018-ci ilin oktyabr ayında Argentinanın Buenos-Ayres şəhərində keçiriləcək. Bu oyunlar 2010-cu ildə Sinqapurdan başlayaraq, 2012-ci ildə Avstriya, 2014-cü ildə Çində, 2016-cı ildə Norveçdə təşkil olunub.

## Olimpizm

### Norveç Olimpiada-2026-ya namizədliyini irəli sürüb

Norveçin Telemark əyaləti 2026-cı ildə keçiriləcək qış Olimpiya Oyunlarına ev sahibliyi etmək arzusunda olduğunu bildirib. Bu məsələ ilə bağlı əyalətin idman departamentinin rəhbəri Qeyr Berq Nordveyt deyib: "Telemark Olimpiada-2026-ya ev sahibliyi etmək üçün iddialıdır".

Namizədlik təşəbbüsünü irəli sürənlər olimpiadanın Telemark, Bestfold və Buskerud əyalətlərində keçirilməsini istəyirlər.

### Pxenyan-2018 Olimpiadasının məşəl estafetinə start verilib

Yunanıstanda Pxenyan-2018 Qış Olimpiya Oyunlarının məşəl estafetinə start verilib. Məşəl təşkilatçılara təhvil verilib. Olimpiya məşəlini əvvəlcə yunanıstanlı atlet Apostolos Angelis daşıyıb. Sonra onu "Mançester Yunayted" və Cənubi Koreyanın komandasının keçmiş oyunçusu Pak Çji Suna verib.

Olimpiya məşəli Qış Olimpiya Oyunlarının təntənəli açılış mərasiminə 100 gün qalmış Cənubi Koreyaya çatdırılıb. Ağ lampaya yerləşdirilən Olimpiya odu ölkə ərazisini dövr edərək ev sahibi olan Pxenyan şəhərinə çatdırılacaq.

Xatırladaq ki, Pxenyan-2018 Qış Olimpiya Oyunları fevralın 9-25-də keçiriləcək. Pxenyan ev sahibliyi hüququnu 2011-ci ildə əldə edib.

### Daha bir məmurun işi yoxlanılır

Fransa hököməti Beynəlxalq Yüngül Atletika Federasiyası (İAAF) şurasının üzvü namibiyalı Frenk Frederiksi Olimpiada-2016-nın ev sahibliyinə seçkilər zamanı dələduzluqda ittiham edir. Bu barədə France Press Agentliyi xəbər verir.

Frenk Frederiks həmin vaxt səslərin toplanması üzrə komissiyanın üzvü olub. Güman olunur ki, həmin şəxsin firmasının hesabına İAAF-ın keçmiş rəhbəri Lamin Diakın oğlu Papa Massat Diak tərəfindən külli miqdarda vəsait köçürülüb.

Həmin şəxs bu ilin mart ayında İAAF-da öz fəaliyyətini dayandırıb. Məmur Olimpiada-2024-ün Qiymətləndirmə Komissiyasının rəhbəri vəzifəsindən də istefa verib.

## Anons

17 idmançımız Budapeştdə mübarizəyə başlayıb

Dünya çempionatında Azərbaycanı doqquz idmançı təmsil edəcək

WORLD SAMBO CHAMPIONSHIPS SOCHI 2017

Azərbaycan çempionunun "Apoel"lə oyununun vaxtı dəqiqləşdi

Dünya çempionu turnirə "Wild Card"la qoşulacaq

Ədalət təmsilçilərimiz beynəlxalq yarışlara dəvət alıblar

Seçmə mərhələ yarışları yekunlaşıb

Səh. 2

Cüdo

(əvvəli 1-ci səhifədə)

# Cüdo Federasiyasının təlim-məşq zalının açılışı olub



Nəfis dizaynda tərtib edilmiş zalda Azərbaycanın cüdo tarixində uğur qazanmış Olimpiya, dünya və Avropa çempionatlarının qalib və mükafatçılarının şəkilləri, zəfərlərlə dolu anları həkk edilən fotostendlər yer alıb. Ən müasir standartlara cavab verən idman qurğuları ilə təmin olunmuş zalda tibb məntəqəsi, soyunub-geyinmə otaqları və duş kabinələri yaradılıb. Cüdo zalında əsas milli komandamızla yanaşı, gənclərdən və qadınlardan ibarət yığmaların üzvləri də məşq edəcəklər.

Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqov idmançı və məşqçilər üçün yaradılan şərait barədə ətraflı məlumat verərək bildirib ki, burada tanınmış cüdoçularımızın iştirakı ilə kiçikyaşlı yeniyetmə idmançılara ustad dərsləri keçiriləcək.

Açılış mərasimindən sonra 2017-ci ildə cüdo idmanı üzrə görülmüş işlərin və əldə olunmuş nailiyyətlərin yekunları müzakirə olunub.

Azərbaycan Cüdo Federasiyasının prezidenti Rövnəq Abdullayev çıxış edərək son iki ildə əldə olunan uğurlardan danışıb. O, gələn ilin daha məhsuldar olacağını diqqətə çatdıraraq, may ayında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilən "Böyük dəbilqə" yarışının, sentyabrda isə dünya çempionatının Bakıda keçiriləcəyini vurğulayıb.

Sonra cüdo üzrə Azərbaycan milli komandasının yeni baş məşqçiləri təqdim olunub. Kişilərdən ibarət əsas milli komandaya Olimpiya Oyunlarının mükafatçısı, Əməkdar İdman Xadimi ukraynalı mütəxəssis Ruslan Maşurenko, qadınlardan ibarət milliyə isə dünya və Avropa çempionu, Belarusun Əməkdar İdman Ustası adına layiq görülmüş, "Şöhrət" ordenli Natiq Bağırov başçılıq edəcək.

ACF-in baş katibi Elmar Babanlı 2017-ci ildə Azərbaycan cüdoçularının beynəlxalq yarışlarda qazandıqları uğurlar barədə hesabat məruzəsi ilə çıxış edib. Məruzədə cari ildə rəsmi beynəlxalq yarışlarda rekord sayda medalların və tarixi nailiyyətlərin qazanıldığı bildirilib. Qeyd olunub ki, bu müddət ərzində böyüklər, gənclər, yeniyetmələr, paralimpiyaçılar və veteranlardan ibarət milli yığma komandalarımızın üzvləri iştirak etdikləri 37 beynəlxalq yarışda 189 medal qazanıblar. Bunlardan 68-i qızıl, 57-si gümüş və 64-ü bürünc medaldır. "Azərbaycan Cüdo Federasiyası mütəmadi olaraq cüdo üzrə bütün milli komandalarımızın yerli və beynəlxalq təlim-məşq toplanışlarını yüksək səviyyədə təşkil edir, idmançıların hazırlıq planı üzrə nəzərdə tutulan bütün beynəlxalq yarışlarda iştirakını nizamlayır. Federasiyanın fəaliyyətinin prioritet istiqamətlərindən biri də bölgələrdə cüdonun inkişaf etdirilməsidir. Bu sahədə artıq bir neçə regional cüdo mərkəzinin açılışı olub. Federasiya tərəfindən cüdo tatamiləri və kimano geyim dəstləri zallarda təmənnasız məşq etməyə cəlb olunan yüzlərlə yeniyetmənin istifadəsinə verilib. Həmçinin ötən ay Naxçıvan Muxtar Respublikası da daxil olmaqla respublikamızın 7 bölgəsində iki yaş qrupunda yeniyetmələr arasında regional birinciliklər, o cümlədən Sumqayıt və Bakı şəhərlər çempionatları keçirilib. Regional birinciliklərdə yüksək təşkilatçılıq səviyyəsi və iştirakçıların rekord sayı mütəxəssislərə seleksiya işlərinin aparılması və yığma komandalara yeni namizədlərin hazırlanması üçün əlverişli şərait yaradıb. Bu yarışlara 47 şəhər və rayondan 2 mindən artıq yeniyetmə idmançı qüvvəsini sınayıb. Qalib və mükafatçılar qarşıdan gələn Azərbaycan birinciliklərində iştirak etmək hüququ qazanıblar", - deyə Elmar Babanlı məlumat verib.

Yığıncaqda, həmçinin Əməkdar məşqçi Ağayar Axundzadə çıxış edərək idmançılara və məşqçilərə göstərilən diqqətə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Sonra Rövnəq Abdullayev 2017-ci ilin son aylarında yüksək nəticələr qazanan məşqçiləri, idmançıları hədiyyə və mükafatlarla təltif edib.

Azərbaycan milli komandasının kapitanı Elxan Məmmədov bütün cüdoçular adından Rövnəq Abdullayevə xatirə hədiyyəsi təqdim edib.

Kikboksinq

## 17 idmançımız Budapeştdə mübarizəyə başlayıb

Noyabrın 3-də Macarıstanın paytaxtı Budapeşt şəhərində kikboksinqin WAKO versiyası üzrə dünya çempionatı start götürüb. Komandamız yarışda federasiyanın prezidenti, millət vəkili Adil Əliyevin rəhbərliyi altında 17 idmançı ilə mübarizə aparır. Turnirdə ölkəmizi ədalət təmsilçisi qismində beynəlxalq dərəcəli hakim Elnur Alıyev təmsil edir. Dünya çempionatına noyabrın 12-də yekun vurulacaq.

Sambo

## Dünya çempionatında Azərbaycanı doqquz idmançı təmsil edəcək

Noyabrın 9-13-də Soçidə sambo üzrə dünya çempionatı keçiriləcək. Mundialda ölkəmizi 9 idmançı təmsil edəcək.

Çempionatda Azərbaycanın idman şərəfini Ağasif Səmədov (52 kq), Fuad Məmmədov (57 kq), Cavidan Qarayev (62 kq), Emil Həsənov (68 kq), Samir Kərimov (74 kq), Ceyhun Hüseynov (82 kq), Murad Rəcəbli (90 kq), Nizami Məmmədov (100 kq) qoruyacaqlar.

Döyüş sambosu yarışlarında isə Məhəmməd Şahpələngli (68 kq) xalça üzərinə çıxacaq.

Dünya çempionatında ölkəmizi hakim qismində Cabir İsmayılov təmsil edəcək.

Spartakiada

## Üzgüçülər arasında qalib komandalar müəyyənləşib

"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin (BTİCİB) təşkilatçılığı ilə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününə həsr olunmuş XX Respublika Spartakiadası davam edir. Yarışlar 10 idman növü üzrə keçirilir. Artıq mini futbol, voleybol, kəndirdartma, stolüstü tennis, daşqaldırma idman növlərində qalib komandaların adına aydınlıq gəlib.

Spartakiada çərçivəsində noyabrın 1-də "Azal" İdman Klubunun idman zalında kişilər də qadınlar arasında üzgüçülük yarışları keçirilib. Avtomobil nəqliyyatı və yol təsərrüfatı kollektivinin kişilərdən ibarət komandası 1-ci, qadınlardan ibarət komandası isə 3-cü yeri tutub. Qadın üzgüçülər arasında ən güclü komanda adını Aviasiya işçilərinin kollektivi qazanıb. Həmin kollektivin kişilərdən ibarət komandası isə 2-ci yerlə kifayətlənib. Metropoliten işçiləri komandasının qadın üzgüçüləri 2-ci, kişi üzgüçüləri isə 3-cü olublar.



Mükafatalayiq yerləri tutan komandalar "Zenit" BTİCİB-nin müvafiq diplomları və qiymətli hədiyyələri ilə mükafatlandırılıblar.

Yarışlara noyabrın 23-də yekun vurulacaq.

Voleybol

## *Azərbaycan çempionunun "Apoel"lə oyununun vaxtı dəqiqləşdi*

Kişi voleybolçulardan ibarət "Lokomotiv" klubunun "Çelenc Cup"ın II təsnifat mərhələsində keçirəcəyi cavab oyununun vaxtı dəqiqləşib. Azərbaycan çempionunun "Apoel"lə ikinci oyunu noyabrın 29-da təşkil olunacaq. Nikosiyada keçiriləcək görüş Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

Qeyd edək ki, komandalar arasında ilk görüş noyabrın 21-də olacaq.

Xəbərlər

## *Sumqayıtda üçüncü Uşaq Paralimpiya İdman Oyunları keçiriləcək*

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) təşkilatçılığı ilə Sumqayıt Paralimpiya İdman Kompleksində üçüncü Uşaq Paralimpiya İdman Oyunları keçiriləcək.

Oyunlarda respublikanın müxtəlif reqionlarından olan uşaq paralimpiyaçılar altı idman növündə güclərini sınayacaqlar. Taekvondo idman növünün də yer aldığı Oyunlarda (6-18 yaşlı) qalib olan idmançılara təşkilatçılar tərəfindən medal və diplomlar təqdim olunacaq. Taekvondo yarışları dekabrın 11-də Sumqayıt Paralimpiya İdman Kompleksində keçiriləcək.

Qeyd edək ki, beynəlxalq təcrübədə ilk dəfə Milli Paralimpiya Komitəsi sağlamlıq imkanları məhdud uşaqların kütləvi şəkildə idmana cəlb olunmalarını öz himayəsinə götürərək, 2013-cü ilin sentyabrında Komitənin nəzdində Uşaq Paralimpiya Komitəsi yaradıb. Bu komitənin yaradılmasında əsas məqsəd ehtiyat idmançıların hazırlanması ilə yanaşı, sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiya olunmasına dəstək verməkdir.

## *Seçmə mərhələ yarışları yekunlaşıb*

Azərbaycanın bütün bölgələrini əhatə edən ağırlıqqaldırma üzrə respublika yarışlarının dördüncü seçmə mərhələsinə yekun vurulub. Turnirin Abşeron mərhələsi "AA-AF Park" Yaşayış Kompleksinin yarış zalında keçirilib. Yarışda Sumqayıt, Xırdalan, Qobustan, Şamaxı, İsmayıllı və Bakıdan olan 100-ə yaxın ağırlıqqaldıran körpücük üzərində qüvvəsini sınayıb.

Mərhələ yarışları çərçivəsində noyabrın 1-2-də Lənkəranda Cəlilabad, Neftçala, Lənkəran, Lerik və Astaranı, noyabrın 4-5-də isə Samuxda Goranboy, Gəncə, Yevlax, Samux, Qazax, Şəki və Qaxı təmsil edən atletlər qüvvələrini sınayıblar.

Qeyd edək ki, zona turnirində 1999-2007-ci illər təvəllüdlü kişilər və qadınlar müvafiq yaş qruplarında mübarizə aparıblar. Qaliblər Sinkleyr cədvəli üzrə müəyyən olunublar.

Şahmat

## Dünya çempionu turnirə "Wild Card"la qoşulacaq

Dünyanın ən güclü şahmatçısı adı uğrunda silsilə yarışların təşkilatçısı "Agon" şirkəti İddiaçılar Turnirində iştirak etmək üçün "Wild Card"ı 14-cü dünya çempionu Vladimir Kramnikə təqdim edib.

Turnir 2018-ci il martın 10-dan 28-dək Berlində keçiriləcək. Yarışın qalibi şahmat tacının hazırkı sahibi - norveçli Maqnus Karlsen ilə dünya çempionu adı uğrunda oynamaq hüququ qazanacaq. Turnirdə FİDE reytinqi ən yüksək olan iki oyunçu, Qran-Pri seriyasının iki qalibi və dünya kubokunun qızıl və gümüş mükafatçıları qarşılaşacaqlar.

Beləliklə, həmin yarışda iki rusiyalı qrossmeyster - Vladimir Kramnik və Sergey Karyakin çıxış edəcəklər. Karyakin bu hüququ 2016-cı ilin dünya çempionu adı uğrunda final matçının iştirakçısı kimi qazanıb. Turnirin daha iki iştirakçısının adları da artıq məlumdur. Bunlar 2017-ci il dünya kubokunun finalçıları Dink Liren və Levon Aronyandır.

Bu dördlüyə 2017-ci il FİDE Qran-pri seriyasının iki qalibi və FİDE reytinqi ən yüksək olan iki iştirakçı da əlavə olunacaq. Azərbaycanı təmsil edən iki qrossmeysterin - Şəhriyar Məmmədyarov və Teymur Rəcəbovun da bu turnirdə iştirak etmək şansı var.

Qeyd edək ki, İddiaçılar Turnirinin minimal mükafat fondunun həcmi 420 min avroya bərabərdir. 2018-ci ildə ilk dəfə olaraq turnirə biletlərin onlayn rejimdə satışı hesabına mükafat fondu 10 faiz artırılacaq.

İddiaçılar Turniri Berlinin mərkəzində, məxsusi olaraq bu şahmat oyunu üçün hazırlanmış məkanda keçiriləcək.

Xatırladaq ki, 2016-cı ildə Moskvada keçirilən İddiaçılar Turnirinin qalibi Sergey Karyakin olub. Rusiyalı şahmatçı dünya çempionu adı uğrunda görüşdə tay-breykdə Maqnus Karlsenə uduzub.

## 100-dən çox zəka sahibi Bakıda mübarizə aparacaq

Noyabrın 12-dən 21-dək "Baku Open-2017" şahmat festivalı keçiriləcək. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 26-cı ildönümünə həsr edilən festivalın turnirləri iki qrupda - open və uşaqlar arasında təşkil olunacaq.

Open turnir noyabrın 12-dən 21-dək Novxanıda "AF" hotelində, uşaqlar arasında turnir isə noyabrın 11-dən 20-dək Respublika Şahmat Mərkəzində keçiriləcək.



Festivalda iştirak etmək üçün 8 ölkədən, o cümlədən Azərbaycan, Əfqanıstan, İran, Qazaxıstan, Monqolustan, Pakistan, Rusiya və Ukraynadan 100-dən çox şahmatçı müraciət edib. Turnirin baş hakimi beynəlxalq dərəcəli arbitr Nurəli Məmmədzadədir.

Həndbol

## Ədalət təmsilçilərimiz beynəlxalq yarışlara dəvət alıblar

Azərbaycanın beynəlxalq dərəcəli həndbol hakimləri beynəlxalq yarışlara dəvət alıblar. Həmyerlilərimizdən İsgəndər Əsgərov qadınlar arasında Avropa Həndbol Federasiyası (EHF) kuboku uğrunda turnir



çərçivəsində təşkil olunacaq "Astraxanoçka"-"Kuban" (hər ikisi Rusiya) qarşılaşmasında EHF-i təmsil edəcək. Noyabrın 11-də "Astraxan" arenasında keçiriləcək oyunun hakimləri Bosniya və Herseqovinadan olan Aman Konjicanin və Dino Konjicanin olacaqlar. Emil və Ernest Ağakişi qardaşları isə noyabrın 12-də qadın həndbolçular arasında "Çağırış Kuboku" uğrunda turnir çərçivəsində keçiriləcək "Maedilon VZV" (Hollandiya) - "Rokasa Qran Kanaria ACE" (İspaniya) görüşünü idarə edəcəklər. "Alkmaar" arenasında təşkil olunacaq oyunda EHF nümayəndəsi lüksemburqlu Paul Nesser olacaq.

## "Azəryol" Lüksemburqa səfər edəcək

Qadın həndbolçulardan ibarət "Azəryol" klubu "Çağırış Kuboku" uğrunda yarışda ilk oyununu keçirəcək.

Azərbaycan təmsilçisi noyabrın 18-də Lüksemburqun "HB Dudelanj" komandasının qonağı olacaq.

"Dudelanj" arenada keçiriləcək görüşün hakimləri yunanıstanlı Mixail Mertinian və Evangelos Sirepisios olacaq. Avropa Həndbol Federasiyasının (EHF) almaniyalı Frank Bölhoff təmsil edəcək.

Qeyd edək ki, cavab oyunu noyabrın 19-da əvvəlcədən razılaşdırıldığı kimi Lüksemburqda keçiriləcək.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

***"İdman, bədən tərbiyəsi, hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir".***

***İlham Əliyev***

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Gimnastika ölkəmizdə seçilən idman növlərindən biridir



Azərbaycanda idmanın inkişafına geniş prizmadan yanaşma və bu istiqamətdə aparılan uğurlu dövlət siyasəti öz səmərəli bəhrəsini verir. Ölkədə fəaliyyət göstərən idman qurumları - Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri vahid siyasət çərçivəsində ümumi işə xidmət edirlər. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan dünya birliyinə idman dövləti kimi təqdim olunur. İdmançılarımız yüksək səviyyəli beynəlxalq yarışlarda uğurla çıxış edir, vətənimizin şöhrətini günü-gündən artırırlar. Ölkəmiz yüksək səviyyəli beynəlxalq yarışların yüksək səviyyədə təşkili və keçirilməsində mötəbər idman qurumlarının, rəsmi şəxslərin etimadını qazanıb. Respublika idman və Olimpiya Hərəkatının inkişafını daim diqqətdə saxlayan Azərbaycan Respublikasının Prezidenti gənc nəslin idmanla məşğul olmasını son dərəcə vacib məsələ kimi vurğulayır: "İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. Mən Milli Olimpiya Komitəsinin prezidenti və ölkə Prezidenti kimi çox istəyirəm ki, Azərbaycanda idmanla məşğulolma prosesi kütləvi xarakter alsın. Artıq kütləvilik artır, ancaq istənilən səviyyədə deyildir. Hər bir vətəndaş, hər bir gənc mütləq idmanla məşğul olmalıdır. Çünki ilk növbədə, idman sağlamlıq, sağlam həyat tərzi deməkdir".

Ölkəmizdə idmanın inkişafı və kütləviliyində, uşaq və gənclərin sağlam böyüməsində xüsusi rolu olan idman qurumlarından biri də federasiyalardır. "Olimpiya dünyası" qəzeti budəfəki sayında ölkənin idman qurumları arasında səmərəli və məqsədyönlü fəaliyyəti ilə seçilən Azərbaycan Gimnastika Federasiyası, federasiyanın gördüyü işlər, həyata keçirdiyi tədbirlər barədə məlumatları oxucularımıza çatdırır.

## Bədənə gözəllik verir, nəcib hisslər aşılayır

Gimnastika ölkəmizdə populyarlığı ilə seçilən, uşaq və gənclər tərəfindən sevilən idman növlərindən biridir. Gimnastika idman növü uşaq və gənclərin fiziki və mənəvi tərbiyəsində xüsusi rola malikdir. Bu növün kütləvi xarakter alması bunu bir daha sübut edir. İdman gimnastikadan başlayır. Yəni insanın fiziki sağlamlığının əsasında məhz gimnastik hərəkətlər durur. Gimnastika bədənə çeviklik, güc, qədd-qamət, gözəllik verir, insanda igidlik və nəciblik hissləri aşılayır. Təsadüfi deyildir ki, qədim yunanlar bu növdən hərbçilərin yetişdirilməsində istifadə edirdilər. Olimpiya idman növlərindən olan gimnastika, həm də çox çətin növdür. Mütəxəssislərin dediklərinə görə, gimnastika ilə məşğul olduqdan sonra digər idman növlərində məşq etmək olduqca asandır. Son illər bu idman növü ölkəmizdə kütləvi xarakter alıb. Bunu paytaxt Bakıda, eləcə də, bölgələrdə fəaliyyət göstərən gimnastika bölmələrinə gələnlərin sayının artması da sübut edir. İstər idmanının inkişafı, istərsə də, beynəlxalq yarışların keçirilməsi istiqamətində əldə olunan uğurlar onu göstərir ki, rəhbərlik etibarlı əllərdədir.

Azərbaycan Gimnastika Federasiyası (AGF) 1956-cı ildə yaradılıb. Ölkəmiz müstəqillik əldə etdikdən sonra AGF 1993-cü ildə Beynəlxalq Gimnastika Federasiyasına, 1996-cı ildə isə Avropa Gimnastika İttifaqına üzv qəbul olunub. AGF-nin 2002-ci il oktyabrın 7-də keçirilən təsis konfransında ölkənin birinci xanımı, birinci vitse-prezident Mehriban xanım Əliyevanın federasiyanın prezidenti seçilməsi ilə təşkilat yenidən qurulub və bu sahədə böyük dönüş yaranıb. 15 illik yubileyini buyaxınlarda qeyd edən federasiyanın səmərəli fəaliyyəti nəticəsində bu gün ölkə gimnastikası öz inkişaf dövrünü yaşayır. Gimnastikanın bütün növləri üzrə maddi-texniki bazasının gücləndirilməsi, kadr islahatlarının aparılması sayəsində 2002-ci ildən sonra bu sahədə yüksək uğurlar qazanılıb. AGF-nın məqsədyönlü və səmərəli fəaliyyətinin nəticəsində uşaq, yeniyetmə və gənclərin gimnastika növləri üzrə bölmələrə axını artıb. Hazırda Azərbaycanda 5 mindən çox yeniyetmə və gənc gimnastika ilə məşğul olur. Məlumat üçün bildirək ki, ilk dövrlərdə ölkəmizdə əsasən bədii gimnastika, akrobatika və tamblinq növləri fəaliyyət göstərib. 2013-cü ildən qadın idman gimnastikası, 2014-cü ildən isə batut və aerobika gimnastikası inkişaf etdirilib. Hazırda Azərbaycan Gimnastika Federasiyasının tərkibinə altı idman növü daxildir. Bunlara Olimpiya növləri olan bədii gimnastika, qadın və kişi idman gimnastikası, batut, həmçinin tamblinq, akrobatika və aerobika kimi qeyri-Olimpiya növləri aiddir. Ölkəmizdə ən yüksək nailiyyətlər bədii gimnastikada əldə olunub. Bu növün Azərbaycanda yaranma tarixi keçən əsrin 40-cı illərinə təsadüf edir. Bu gün Azərbaycanda bədii gimnastikanın zəngin ənənələrini davam etdirməyə qadir olan perspektivli gimnastların yeni nəsli mövcuddur. Ayşən Bayramova, Zöhrə Ağamirova, Diana Doman və başqaları bədii gimnastikanın böyüməkdə olan nəslinin nümayəndələridir.

Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbər seçilməsi ölkəmiz üçün o qədər ənənəvi olmayan gimnastikanın sürətli inkişafına və populyarlaşmasına imkan verib. İlk uğurlar özünü çox gözlətməyib. Təsis konfransından cəmi bir neçə ay sonra - 2003-cü ilin avqustunda Bakıda ilk dəfə bədii gimnastika üzrə Dünya kuboku mərhələsi təşkil olunub. Həmin ilin sentyabrında isə Azərbaycanın bədii gimnastika tarixində ilk Olimpiya lisenziyası əldə edilib. Lisenziyanı Budapeştdə keçirilən 26-cı dünya çempionatında Dinara Gimatova qazanıb. Sonra uğurlar biri-birini əvəz edib. 2004-cü ilin aprelində Bakıda ikinci dəfə bədii gimnastika üzrə Dünya kuboku mərhələsi təşkil edilib. Həmin il ölkəmiz Afinada keçirilən XXVIII Yay Olimpiya Oyunlarında gimnastika idman növündə ilk dəfə təmsil olunub. Bu yarışlarda Anna Qurbanova bədii gimnastika üzrə yarışlarda mübarizə aparıb.

2005-ci il Azərbaycan Gimnastika Federasiyasının tarixində xüsusilə əlamətdar il olub. Bakıda üçüncü dəfə "A" seriyasına aid bədii gimnastika üzrə Dünya kuboku keçirilib və ölkəmiz müstəqil Azərbaycanın tarixində ilk dəfə bədii gimnastika üzrə 27-ci dünya çempionatına ev sahibliyi edib. 2006-cı ildə Mehriban Əliyevanın yenidən AGF-in prezidenti seçilməsi idmanın bu növünün inkişafında və federasiyanın fəaliyyətində yeni mərhələnin başlanmasına təkan verib. Bu mərhələdə ölkəmiz gimnastika idman növü üzrə nailiyyətlər əldə etməklə yanaşı, mötəbər tədbirlərə də ev sahibliyi edib. 2007-ci ildə Bakıda ilk dəfə olaraq, bədii gimnastika üzrə 23-cü Avropa çempionatı təşkil olunub. Bu çempionatda gimnastımız Aliyə Qarayeva qızıl medal qazanıb. Təmsilçilərimiz komanda yarışında da uğurlu çıxış edərək, turniri bürünc medalla başa vurublar. Bu uğuru davam etdirən bədii gimnastlarımız 28-ci dünya çempionatında komanda hesabında bürünc medalı təmin ediblər. Bu nailiyyət milli komandamıza Pekin-2008 Olimpiya Oyunlarına maksimal sayda lisenziya əldə etmək imkanı verib. 2007-ci il AGF üçün daha bir uğurla da yadda qalıb. Gənclər və İdman Nazirliyinin müəyyən etdiyi ilin idman yekunlarına əsasən, Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri kollektivi ilin ən yaxşı komandası elan olunub.

2009-cu ildə Bakının ev sahibliyi ilə ikinci dəfə bədii gimnastika üzrə 25-ci Avropa çempionatı keçirilib. Bakıda təşkil olunan bədii gimnastika üzrə Avropa çempionatında komanda hesabında iki gümüş, fərdi yarışlarda isə bir bürünc medal qazanılıb. Azərbaycanın bədii gimnastlarının Avropa çempionatında ilk medalı 2010-cu ildə əldə olunub. Bremendə keçirilən 26-cı Avropa çempionatında Aliyə Qarayeva çoxnövçülük yarışında bürünc medal əldə edib. Həmin çempionatda gimnastlarımız əlavə olaraq gümüş və bürünc medala layiq görülüblər.

## Milli Gimnastika Arenası insanı valeh edir

2014-cü ildə istifadəyə verilən Milli Gimnastika Arenası (MGA) Azərbaycanda gimnastikanın inkişafında növbəti mühüm addım olub. Müasir tələblərə cavab verən arenanın istifadəyə verilməsindən sonra gimnastika növü ilə məşğul olanların sayı daha da artıb. MGA-da gimnastikanın bütün növlərində məşq etmək üçün yüksək səviyyəli şərait yaradılıb. Əlbəttə, kəmiyyət artdıqca, idmançılar yetişdikcə, keyfiyyət də artmağa başlayır. Gimnastikanın bütün 6 yarış növü üzrə turnirlərin ən yüksək səviyyədə keçirilməsi üçün hər cür şəraitin yaradıldığı bu möhtəşəm arena mötəbər beynəlxalq yarışlara da uğurla ev sahibliyi edir. Milli Gimnastika Arenası möhtəşəmliyi ilə təkcə təlim-məşq toplanışına və yarışlara gələn gimnastları deyil, həmçinin müxtəlif ölkələrdən olan idman həvəskarlarını da valeh edir. 9500 tamaşaçı tutumuna malik olan arena həm yerli, həm də beynəlxalq yarışları keçirmək imkanına malikdir. Əsas və köməkçi zaldan ibarət olan MGA-da gimnastikanın müxtəlif növləri üzrə yarışların eyni vaxtda keçirilməsi mümkündür. Arenada idmançıların qalması, təhsil alması, qidalanması, yüksək səviyyədə məşq etməsi üçün şərait mövcuddur.

2015-ci il AGF üçün xüsusilə əlamətdar olub. Azərbaycan gimnastları Bakıda keçirilən birinci Avropa Oyunlarının proqramına daxil olan gimnastikanın bütün altı növü üzrə yarışlarda uğurla mübarizə aparıblar. Oyunlarda gimnastlarımız ümumilikdə, 7 medal qazanıblar. AGF-in prezidenti, Bakı-2015 Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın dövlətimizin başçısının Sərəncamı ilə "Heydər Əliyev" ordeni ilə təltif edilməsi bu uğurların təntənəsi olub. I Avropa Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə AGF-in vitse-prezidenti Altay Həsənov və Oyunlarda 5 medal qazanan Oleq Stepko "Şöhrət" ordeni ilə təltif edilib. Dörd idmançı "Tərəqqi" medalı, bir neçə məşqçi isə Azərbaycan Prezidentinin fəxri diplomuna layiq görülüb. Bu, Azərbaycan Prezidentinin ölkəmizdə gimnastikanın inkişafına göstərdiyi yüksək diqqət və qayğının növbəti nümunəsidir.

2016-cı ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın Avropada idmanın inkişafı və Olimpiya Hərəkatına verdiyi töhfəyə görə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan "Ali Ordeni" ilə təltif olunması AGF prezidentinin beynəlxalq miqyasda fəaliyyətinə verilən yüksək qiymətin bir göstəricisidir.

Bədii gimnastımız Marina Durunda Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən XXXI Yay Olimpiya Oyunlarında debütünü edib. Təmsilçimiz inamlı çıxış edərək yarışların finalına çıxmağı bacarıb.

## Federasiya dünyada böyük nüfuza malikdir

AGF-in uğurları 2017-ci ildə də davam etdirilib. Mart ayında Azərbaycan Gimnastika Federasiyası 3 il ərzində ardıcıl olaraq Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən mükafata layiq görülən fərqlənən federasiyaların reytinq siyahısına daxil olub. Federasiyanın prezidenti, Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Olimpiya idman növü olan gimnastikanın inkişafındakı böyük xidmətlərinə görə Beynəlxalq Gimnastika Federasiyasının yüksək mükafatı ilə təltif edilib.

AGF-nin baş katibi Fərid Qayıbov "Olimpiya dünyası" qəzetinə verdiyi müsahibəsində ölkədə gimnastikanın inkişafı, eləcə də federasiyanın Avropada və dünyada özünə kifayət qədər nüfuz qazandığını dedi: "Azərbaycan Gimnastika Federasiyası 3 ildir ki, ardıcıl olaraq beynəlxalq reytinqdə ən yaxşı federasiyalar sırasında ilk onluqda yer alır. Bu, çox böyük göstəricidir və Azərbaycan gimnastikasının dünyada inkişafından xəbər verir. Bu qiymətləndirmə ölkədə gimnastikanın inkişafı, mötəbər tədbirlərin yüksək səviyyədə təşkilinə görə verilir. Federasiyamız Avropada və dünyada özünə kifayət qədər nüfuz qazanıb. Beynəlxalq Gimnastika Federasiyasının (FİG) 140-dan artıq üzvü olduğunu nəzərə alsaq, bu, böyük nəticədir. Milli Gimnastika Arenası mötəbər yarışların məkanına çevrilib və fəxr ediləsi bir arenadır. 14 ildir ki, bu sahədə çalışıram, müxtəlif ölkələrdə olmuşam amma belə bir arena görməmişəm. Milli Gimnastika Arenasında yaradılan şərait gənclərimizin sağlam və hərtərəfli inkişafına yönəlib. Biz çalışırıq ki, gimnastika ilə məşğul olan uşaq, yeniyetmə və gənclər həm də vətənpərvər ruhda böyüsünlər. Şübhəsiz ki, ən vacib amil gənc nəslin sağlamlığının qorunmasıdır. Azərbaycan Gimnastika Federasiyası bu istiqamətdə lazımi tədbirlər həyata keçirir. Biz gələcəkdə də öz işimizi bu yöndə qurmağa çalışacağıq.

Mayın 6-da Bakıda Beynəlxalq Gimnastika Federasiyasının Ali Şurasının iclası keçirildi. Tədbirdə FİG-in prezidenti Morinatri Vatanabe, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, FİG-in vitse-prezidentləri, qitələr üzrə prezidentlər, texniki komitələrin prezidentləri və digər rəhbər nümayəndələr iştirak edirdilər. Gələn il isə ölkəmiz beynəlxalq qurumun ali konqresinə ev sahibliyi edəcək. Bütün bunlar birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevanın xidməti sayəsində mümkün olmuşdur. Görülən işlər, çəkilən zəhmət öz bəhrəsini verir".

Gimnastlarımız öz uğurlarını davam etdirirdilər. May ayının 12-22-də ölkəmizin ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan təmsilçiləri bədii gimnastika, kişi və qadın idman gimnastikası üzrə yarışlarda ümumilikdə 20 medal (9 qızıl, 7 gümüş və 4 bürünc) qazandılar. Bu, idmançılarımızın bir turnirdə əldə etdikləri medal sayına görə rekord göstəricidir.

Paytaxt Bakı bu ilin üç ayı (fevral, mart və aprel) ərzində dalbadal irimiqyaslı gimnastika yarışlarına ev sahibliyi etdi. Fevralın 17-18-də Bakıda Beynəlxalq Gimnastika Federasiyasının (FIG) batut gimnastikası və tamblinq üzrə Dünya kuboku yarışı keçirildi. Milli Gimnastika Arenasında təşkil edilən yarışda 15 ölkədən 85 batutçu və tamblinqçi qüvvəsini sınadı. Gimnastlar iki gün ərzində bu ildən qüvvəyə minən yeni qaydalar əsasında medallar uğrunda gərgin mübarizə apardılar. Gimnastlarımız yarışları 3 gümüş medalla başa vurdular. Medalları ölkəmizə tampilinq cığırında Mixail Malkin, batut üzrə sinxron çıxışlarda Svetlana Makştarova və Veronika Zemlyanaya, batut üzrə fərdi proqramda isə İlya Qrişunin qazandırdılar.

Martın 16-19-da Bakıda kişi və qadın idman gimnastikası üzrə keçirilən FIG Dünya kuboku yarışlarında 23 ölkənin gimnastları qüvvələrini sınadılar. Artıq ikinci ildir ki, paytaxtımızın ev sahibliyi etdiyi bu yarışda kişi gimnastlar 6, qadın gimnastlar isə 4 dəst medal uğrunda mübarizə aparıblar. Azərbaycan gimnastı Marina Nekrasova sərbəst hərəkətlərdə bürünc medal qazanıb.

Aprelin 28-30-da Bakıda keçirilən bədii gimnastika üzrə FIG Dünya kuboku yarışlarına yekun vurulub. Milli Gimnastika Arenasında keçirilən yarışlarda 19 ölkədən 92 gimnast iştirak etdi. Onlardan 34 nəfəri fərdi proqramda, 58 nəfəri isə ümumilikdə 10 qrup hərəkətləri komandasında qüvvəsini sınadı.

## Gimnastika bölgələrdə də inkişaf etdirilir

Azərbaycan Gimnastika Federasiyasının rəhbərliyi gimnastikanın inkişafı, kütləviliyi üçün paytaxtla yanaşı, respublikamızın ayrı-ayrı bölgələrində də fəaliyyətini genişləndirir. İndiyə qədər AGF-in dəstəyi ilə Sumqayıt, Naxçıvan, Şirvan, Balakən, Kürdəmir, İsmayıllı, Ağdaş, Gəncə, Xırdalan, Qusar, Göyçay və İsmayıllıda gimnastika bölmələri istifadəyə verilib. Gimnastika yarışları təkcə Bakıda deyil, eyni zamanda, Bakı ətrafı qəsəbələrdə və bölgələrdə inşa olunan Olimpiya idman komplekslərində də keçirilir. Məhz bu cür yarışlar yeniyetmə gimnastlara təcrübə qazandırır, onların müxtəlif beynəlxalq turnirlərdə əldə etdikləri nailiyyətlərin əsasını təşkil edir. AGF-nin təşkilatçılığı ilə 2014-cü ildən keçirilən "Bölgələrarası kubok" yarışlarının uşaq və yeniyetmələrin idmana cəlb olunmasında rolu çox böyükdür. Gimnastların peşəkarlıq səviyyələrinin artırılması məqsədilə federasiya tərəfindən mütəxəssislər mütəmadi olaraq bölgələrə ezam olunur, burada müxtəlif turnirlər təşkil edilir. Belə yarışlarda iştirak bölgə təmsilçilərinin təcrübələrinin artırılmasına, gimnastikanın inkişafına daha da təkan verir.

AGF-in beynəlxalq qurumlarla əlaqələri də yüksək səviyyədədir. İndiyədək ölkəmizə səfər edən beynəlxalq rəsmilər ölkəmizdə gimnastikanın inkişafını yüksək dəyərləndirərək yaradılan şəraitdən razı qalıblar. Belə ki, paytaxtımızın ev sahibliyi etdiyi gimnastika üzrə dünya, Avropa çempionatları, Dünya kubokunun mərhələ yarışları ən yüksək səviyyədə təşkil edilib.

Azərbaycan gimnastlarının Avropa və dünya çempionatlarında əldə etdikləri nəticələr, gimnastlarımızın Olimpiya Oyunlarında iştirakı, Bakıda UEG (Avropa Gimnastika İttifaqı) və FIG-nin irimiqyaslı yarışlarının təşkili, bu strukturların rəhbər orqanlarına AGF nümayəndələrinin seçilməsi, 2002-ci ildə gimnastikanın dirçəlişindən bu günə qədər olan effektiv strategiyanın həyata keçirilməsinin nəticəsidir. Əldə olunan nailiyyətlər, qazanılan uğurlar onu deməyə əsas verir ki, AGF-nin prezidenti, Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ötən 15 il ərzində federasiyaya rəhbərliyi, səmərəli fəaliyyəti ölkəmizdə gimnastikanın dinamik inkişafı, idmanın bu növünün kütləviliyinin artırılması, bölgələrdə ən müasir idman mərkəzlərinin yaradılması, beynəlxalq aləmdə parlaq uğurlarla müşahidə olunur. Yuxarıda deyilənlər qarşıdakı illərdə daha yüksək nəticələrin əldə olunmasına güclü inam və zəmin yaradır.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

*Futbol*

# Qurban Qurbanov millimizin yeni baş məşqçisi təyin olundu



***Azərbaycan milli komandasının yeni baş məşqçisi AFFA-nın İcraiyyə Komitəsinin iclasında müəyyənləşib.***

Bakı Olimpiya Stadionunda təşkil olunan iclasın gündəliyindəki əsas məsələ müqaviləsi ilin sonunda başa çatan Robert Prosineçkini kimin əvəzləməsi ilə bağlı olub. Komitə üzvlərinin qərarı ilə "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov milli komandada eyni vəzifəyə təyin edilib.

Komitə üzvləri yekdilliklə yeganə namizəd olan 45 yaşlı mütəxəssisi dəstəkləyib. Qurban Qurbanov növbəti üç seçmə mərhələ üçün - 6 il müddətinə yığmanın baş məşqçisi olacaq.

O, milli komanda ilə paralel "Qarabağ"da da işini davam etdirəcək. Qurban Qurbanovun yığmadakı köməkçilərinin adları yaxın günlərdə müəyyənləşəcək.

Qeyd edək ki, məşqçilik karyerasına 2006-cı ildə başlayan Qurban Qurbanov "Neftçi" (2006-2007) və "Qarabağ"ı (2008-dən) çalışdırıb. Bunadək futbolçu karyerasında bir sıra klubların formasını geyinən keçmiş hücumçu millinin heyətində keçirdiyi 68 oyunda 14 qol vurub. O, yığmanın tarixinin ən yaxşı bombardiridir.

*Müsahibə*

## *Rövnəq Abdullayev:*
# "Millinin baza komandası "Qarabağ" olacaq"

***İcraiyyə Komitəsinin iclası başa çatandan sonra AFFA-nın prezidenti Rövnəq Abdullayevlə yığmamızın yeni baş məşqçisi Qurban Qurbanov jurnalistlərin suallarını cavablandırdı. Brifinqdən əvvəl AFFA-nın prezidenti millimizin yeni baş məşqçisinə yığmanın 13 nömrəli formasını təqdim etdi.***

**- R.A.:** İcraiyyə Komitəsi üzvlərinin yekdil qərarı ilə Qurban Qurbanov yığmanın baş məşqçisi təyin olundu. Mən Qurban müəllimi təbrik edirəm və yeni işində uğurlar arzulayıram.

**- Q.Q.:** Hər kəsi salamlayıram. Rövnəq müəllim, Sizə və İcraiyyə Komitəsinin üzvlərinə təşəkkür edirəm ki, məni bu vəzifəyə layiq bildiniz. İstər futbolçu, istərsə də məşqçi kimi çalışırsan ki, yığmaya dəvət alasan. Hər bir mütəxəssisin arzusudur, yığmada baş məşqçi olsun. Bilirəm, çox məsuliyyətli işdir. Onu da başa düşürəm ki, hamının - azarkeşlərin, futbol ictimaiyyətinin diqqəti milliyə yönəlib. Özüm də yığmanın oyunlarında azarkeş kimi iştirak etdiyimdən, futbolsevərlərin həmin an hansı hissləri keçirdiyini, nələr söylədiyini eşitmişəm. Çalışacağıq, federasiya rəhbərliyi ilə birlikdə daha uğurlu nəticələrə imza ataq. Onu da qeyd edim ki, bu, bir günün, bir ayın işi deyil. Əlbəttə, müəyyən planlarımız var ki, onları da müzakirə etdik. Uzunmüddətli proqramımız olmalıdır və pillə-pillə məqsədə doğru irəliləməliyik. Yığmanın daha peşəkar olması və azarkeşləri sevindirmək üçün əlimdən gələn edəcəm. Həm mediaya, həm də azarkeşlərə "çox sağ ol" deyirəm ki, son günlər mənə bu qədər dəstək verdiniz. Mətbuatda gedən bəzi yazıları oxuyurdum. Mənə olan sevgini və etimadı artıqlaması ilə doğrultmağa çalışacam.

***- Qurban Qurbanov "Qarabağ"da işini davam etdirəcək? Bir neçə gün əvvəl mətbuata açıqlama verən klubun vitse-prezidenti Tahir Gözəl müəyyən şərtlərinin olduğunu bildirmişdi.***

**- R.A.:** Bəli, Qurban müəllim milli ilə yanaşı, "Qarabağ"ı da çalışdıracaq. Millinin baza komandası da "Qarabağ" olacaq. Yığmanın əsas oyunçuları bu klubun şərəfini qoruduğundan, baş məşqçi həm klubda, həm də millidə eyni vəzifəni icra edəcək. Bu məsələ İcraiyyə Komitəsinin toplantısında çox müzakirə olundu. Sonda hamı Qurban müəllimin yığma ilə yanaşı, klubda da işini davam etdirməsinə səs verdi.



***- Müqavilə müddəti nə qədərdir?***

**- R.A.:** Biz artıq proqram şəklində iş qurmağa çalışacağıq. Qurban Qurbanov, ən azı, 3 seçmə mərhələdə millinin başında olacaq. Yeni baş məşqçinin qarşısına məqsəd qoymuşuq ki, bütün oyunçuların hazırlığı bir mərkəzdən idarə olunsun.

***- Baş məşqçinin köməkçiləri kimlər olacaq? Son günlər Rəşad Sadıqovun yığmanın məşqçilər korpusunda yer alacağı ilə bağlı söz-söhbət var.***

**- R.A.:** Hələ baş məşqçi işə başlamayıb. İmkan verin bir müddət keçsin, fikirləşsin, sonra bu məsələni qaldırın (gülür).

**- Q.Q.:** Rövnəq müəllim çox düzgün qeyd etdi ki, bu haqda düşünmək hələ tezdir. Tək məşqçilərlə bağlı yox, bəzi detallar var ki, bu yöndə sualları bu gün cavablaya bilməyəcəm. Çünki onlar hissə-hissə həyata keçiriləcək bir prosesdir. Hələ ki, bu barədə düşünməmişik. Buna hələ vaxtımız var. Bəlkə də, bir aya ətraflı məlumat verəcəyik.

***- Heç kimə sirr deyil ki, yığmanın qarşısına qoyulan əsas məqsəd Bakının da ev sahibliyi edəcəyi EURO-2020-yə vəsiqə qazanmaqdır. UEFA-nın yeni layihəsi olan Millətlər Liqası bu yöndə işinizə yaraya bilərmi? Artıq millinin yer aldığı divizionda rəqiblər və səbətlər də məlumdur.***

**- Q.Q.:** Birdən-birə hər şeyi həll etməyin mümkün olmadığını dəfələrlə vurğulamışam. Futbol elə bir oyundur ki, burada hər şey mərhələ-mərhələ olur. Həmişə də futbolçularımdan tələb etmişəm ki, əlinizə düşən şansdan maksimum istifadə olunmalıdır. Bizim əlimizdə bu imkan, şans varsa, bundan mütləq istifadə etməliyik. Özünüz də görürsünüz ki, "Atletiko" klubu bizdən qat-qat güclüdür, amma "Qarabağ" səfərdə heç-heçə etdi. Çempionatda da düşünürük ki, bizdən zəif komandadır, amma gəlib bizi məğlub edir. Yəni futbolda əvvəlcədən qəti qərar vermək mümkün deyil. Kiçik bir şansımız varsa, bundan maksimum istifadə etməyə çalışacağıq.

***- AFFA sizin qarşınıza, siz qurum qarşısına hansı şərtləri qoymusunuz?***

**- R.A.:** Şərtimiz vətənə qulluq etməkdir. Qurban müəllim də vətənpərvər insandır.

**- Q.Q.:** Məndə belə bir xarakter yoxdur. Biz, sadəcə, doğru yol axtarırıq. Tapdığımız, düşündüyümüz yolu müzakirə edirik və bunu ən yaxşı şəkildə həyata keçirməyə çalışırıq. Bir-birimizi tanıyırıq. Neçə illərdir bizim federasiya rəhbərliyi ilə münasibətlərimizdən də xəbərdarsınız. Ona görə də şərt qoymağa ehtiyac yoxdur. Bir-birimizə inanaraq, güvənərək bu yolu gedəcəyik. İnşallah, birlikdə daha güclü olmağa çalışacağıq.

***Rahib Səmədov***

*Basketbol*



# Ölkə çempionatına start verildi

Kişi basketbolçular arasında XXV Azərbaycan çempionatına start verilib. Noyabrın 4-də təşkil olunan çempionatın ilk oyunlarıTexniki Universitetinin idman zalında keçirilib. Ötən illə müqayisədə bu dəfə komandaların sayında azalma müşahidə olunub. Bu il çempion titulu uğrunda cəmi 6 klub yarışır.

Çempionatın ilk turunda ADNSU komandası "80-lər"i məğlub edib - 101:70. Digər oyunda NTD komandası U16-ya 73:52 hesabı ilə qalib gəlib. Turnirin yeni iştirakçısı "ALOV" isə "AzTOP"-a 45:92 hesabı ilə məğlub olub.

Çempionatın ilk dövrəsi dekabrın 4-də başa çatacaq.

*Xəbərlər*

# Yubiley münasibətilə turnir keçirilib

Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasının 25 illik yubileyi münasibətilə Pirallahı rayonunda kempo idman növü üzrə respublika turniri keçirilib. YAP Pirallahı rayon təşkilatının və Azərbaycan Kempo Federasiyasının təşkilatçılığı ilə keçirilən turnirdə respublikanın bir çox bölgələrindən 108 idmançı qüvvəsini sınayıb.

Yarışın açılış mərasimində çıxış edən YAP Pirallahı rayon təşkilatının sədri, rayon icra hakimiyyətinin şöbə müdiri Hikmət Şikarov Azərbaycanda dövlətçiliyin qorunmasında, ölkəmizin tərəqqisində YAP-ın mühüm rolundan danışıb. Azərbaycanda idmanın inkişafına göstərilən dövlət qayğısından bəhs edən Hikmət Şikarov idmançılarımızın Olimpiya, Avropa və dünya çempionatlarında parlaq qələbələr qazandıqlarını vurğulayıb. O, ölkəmizdə idmanın kütləviliyinin artırılmasına, uşaq, yeniyetmə və gənclərin fiziki sağlamlıqlarının möhkəmləndirilməsinə xüsusi diqqət yetirildiyini qeyd edib.



Azərbaycan Kempo Federasiyasının prezidenti, Əməkdar məşqçi Rauf İbrahimov çıxışında idmanın bu növünün ölkəmizdə inkişafı istiqamətində görülən işlərdən, təşkil olunan yarışlardan danışıb, idmançılara uğurlar arzulayıb.

Turnirin sonunda qaliblərə YAP Pirallahı rayon təşkilatının və Federasiyanın fəxri fərman, kubok və medalları ilə təltif olunublar.

# Uşu-sandaçılar ölkə çempionatında yarışacaqlar

Noyabrın 10-12-də uşu-sanda üzrə XXV Azərbaycan çempionatı və birinciliyi keçiriləcək. Şağan Olimpiya İdman Kompleksində təşkil olunacaq yarışın əsas məqsədi idmançıların ustalıq səviyyəsinin artırılması, yığma komandanın və 2018-ci ildə keçiriləcək Avropa çempionatında iştirak edəcək heyəti müəyyənləşdirməkdir.

Çempionatda yeniyetmə, gənc və böyüklər müxtəlif çəki dərəcələrində mübarizə aparacaqlar.

Yarışın qalibləri diplom və medallarla mükafatlandırılacaqlar.

Qeyd edək ki, çempionat Gənclər və İdman Nazirliyi və Azərbaycan Uşu-sanda Federasiyası tərəfindən keçiriləcək.

# "Ferrari" Formula-1-i tərk edir?

"Ferrari" Formula-1-i tərk edə bilər. Bunu komanda rəhbərliyi açıqlayıb. Onlar 2021-ci ildə yarışın reqlamentinə ediləcək dəyişikliklərə etiraz əlaməti olaraq, bu addımı atmaq niyyətindədilər. Belə ki, seriyanın yeni sahibi olan "Liberty Media" və Formula-1 üçün mühərrik istehsalçıları komandalarını saxlamaq üçün xərcləri azaltmağa çalışır. "Ferrari"nin prezidenti Sercio Markionne isə bu yeniliklə razı deyil: "Əgər brendə və bazardakı mövqeyimizə fayda verəcək şərtlər olmasa, biz Formula-1-də yarışlardan imtina edəcəyik. Bu turnir bizim qanımızdadı amma özümüzü başqa cür apara bilmərik. Çünki buranı tanınmaz hala salırlarsa, Formula-1-də qalmayacağıq".



Qeyd edək ki, noyabrın 7-də Formula-1 rəhbərliyi ilə strateji qrup arasında görüş olacaq. Burada büdcələrin məhdudlaşdırılmasına, idman və kommersiya sistemlərinə yenidən baxılacaq. 1950-ci ildən Formula-1-də çıxış edən "Ferrari"nin müqaviləsi isə 2020-ci ildə başa çatacaq.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19